# Təbiət və gözəllik şairi

***Hüseyn Arif – 100***



*(Daycest)*

**Bakı – 2024**

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024.**

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**

**Ağayeva İranə**

**Ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi 88**

**Əlaqə: (+99412) 597-08-79, (+99412) 597-09-86**

**info@clb.az**

**ushaqkitabxanasi@gmail.com**

**childlibbaku@yahoo.com**

## Həyat və yaradıcılığı

***Azərbaycanın Xalq şairi, Azərbaycan Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi, lətifələriylə el arasında məşhur olan Hüseyn Arif şeirləriylə qəlbləri fəth etmiş bir ədibdir.***

***Dövrünün dəmir qayda və qanunlarına baxmayaraq azad ruhlu, təbiət vurğunu olan Hüseyn Arifi Sovet imperiyası öz təsiri altına sala bilməmişdir. O, iştirak etdiyi məclislərdə, tədbirlərdə, getdiyi rayonlarda maraqlı və gülüş doğuran əhvalatlarla, duzlu, məzəli söhbətləri ilə məhşur olmuşdur. Şairin hələ sağlığında ikən lətifələri dildən-dilə dolaşmış, üzlərə gülüş payı bəxş etmişdir.***

***Hüseynzadə Hüseyn Camal oğlu 1924-cü il iyunun 15-də Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdur. Bakı pedaqoji məktəbində (1937-1940), Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində (1946-1951) təhsil almışdır.***

***Xalq şairi Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətində şöbə müdiri, "Azərnəşr"in Bədii Ədəbiyyat Redaksiyasında böyük redaktor, "Gənclik" nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri, Azərbaycan Aşıqlar Birliyinin sədri vəzifələrində çalışmışdır. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü seçilmişdir.***

***Ədəbi fəaliyyətə İkinci dünya müharibəsi illərində başlayan xalq şairinin ribrettosu əsasında 1957-ci ildə "Azad" tamaşası M.F.Axundov adına Opera və Balet teatrında, "Yolda" poeması əsasında yazdığı eyniadlı pyesi 1974-cü ildə M.Qorki adına Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur. 1971-ci ildə "Dağ Kəndi" poemasına görə "Qızıl Oraq" mükafatina layiq görülmüşdür. Əsərləri keçmiş SSRİ və bir sıra xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuş, şeirlərinə musiqilər bəstələnmişdir.***

***1976-cı ildə Hüseyn Arifin Oğlu (Arif Hüseynzadə) rəhmətə getmiş, məhz o gündən sonra əslində Hüseyn Hüseynzadə olan Hüseyn Arif bu adı özünə təxəllüsü götürmüşdür. Oğlunun ölümündən sonra həyatı çox dəyişmişdi. Hüseyn Arif Yaradıcılığının sonrakı dövrünün böyük bir qismini məhz oğluna yazdığı şeirlər tutmuşdur.***

***Görkəmli şair 1976-cı ildə Yuqoslaviyada (Sarayevo) Beynəlxalq poeziya günlərinin, 1979-cu ildə Liviyada SSRİ günlərinin iştirakçısı olmuşdur.***

***Hüseyn Arif 1992-ci il sentyabrın 14-də Bakıda vəfat etmiş, doğulduğu kənddə dəfn olunmuşdur.***

***Hüseyn Arifin 100 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası şairin fondunda mövcud olan kitablarının, haqqında yazılan kitabların, dövri mətbuatda keçən əsrdən günümüzə qədər çap olunan əsərlərinin və eləcə də, haqqında dərc olunan məqalələrin tammətnli siyahısını hazırlayaraq oxuculara təqdim edir.***

## Görkəmli şəxslər Hüseyn Arif haqqında

“Hüseyn Arif... çox müdrik idi. Sözün əsl mənasında şair idi... İlk gündən son gününəcən şair ömrü yaşadı”.

*Vaqif Səmədoğlu*

“Hüseyn Arifin şeirləri diridir, canlıdır, oxucu ilə bərabər nəfəs alır. Bu şeirlər Dədə Qorqud sazından doğulmuşdur. Ona görə də dağ suyu qədər büllur, nəğmə qədər cingiltilidir. Hüseyn gördüyü adamları, onların duyğu və düşüncələrini ümumiləşdirib sənətin şaqraq dilinə çevirir...”

*Bəxtiyar Vahabzadə*

“İfadəni yerli-yerində işlətmək, xalq yaradıcılığından, poeziyamızın böyük ənənələrindən bəhrələnmək, sözün dadını, duzunu, tutumunu, çəkisini və ən əsası isə yerini bilmək nöqteyi-nəzərindən Hüseyn təkrarolunmaz sənətkardır. O, aşıq yaradıcılığını, el şairlərimizi, dastanlarımızı, bayatılarımızı... demək olar ki, əzbər bilir. Yaddaşı xalq yaradıcılığının canlı ensiklopediyasıdır”.

*Cabir Novruz*

“Hüseynin qələmi poeziyada olduğu kimi, nəsrdə də güclüdür... Qızıl külçə halında, bir də zərrə halında olur. Hüseyn Hüseynzadə yaradıcılığı Azərbaycan poeziyasında külçə halında olan qızıldır”.

*Rəsul Rza*

“Bugünkü Azərbaycan şeirini həyatımızın, əsrimizin qəhrəmanlıq və rəşadət, məhəbbət və sədaqət salnaməsi adlandırsaq, onun neçə-neçə gözəl səhifəsini mənsub olduğun nəslin adından şəxsən sən yazmısan, dostum Hüseyn”.

*Nəbi Xəzri*

“O, sağlığında canlı klassik adlandırılan, ömrü əfsanəyə, dastana dönən sənət xoşbəxti idi. Damladakı dəryanı, zərrədəki dünyanı, adilikdəki qeyri-adiliyi görüb, göstərə bilirdi, ruhun dibsiz dərinliklərindən, sonsuz səmalarından xəbər gətirir, soraq verirdi onun şeirləri. Ona görə bu şeirlər könüllər fatehi, duyğular sarvanı idi; əksəriyyəti nəğməyə dönüb, ruhu neçə minillik köhnə dolaylarda təzə bir şövqlə qanad çalırdı... O, Ağstafa-Oğuztəpədə adi bir evdə, sadə bir ailədə dünyaya gəldi. Şeirlərilə adi dünyanın min bir qeyri-adiliyini yenidən kəşf etdi. Beləcə, özü demişkən:” Bir ömrün tarixi bir dastan oldu” möcüzə şeirləri ilə yeni bir dünya yaratdı Hüseyn Arif”.

*Sadıq Elcanlı*

“Həyatı, insanları yaxşı tanıyan, məddahlıqdan uzaq, həmişə öz sözünü, düz sözünü deyən Hüseyn Arif həm təbiət şairi, həm insanlıq şairi idi”.

*Müzəffər Şükür*

“Hüseyn Arifin ən böyük mükafatı el sevgisi idi. Allahın ona bəxş etdiyi mükafat isə sadəlik və fitri istedad idi”.

*Fəzail İbrahimli*

“Ana dilində yazan hər şairin dillə davranışı, sözü ram etmək bacarığı yalnız onun ustalığının deyil, həm də millətə nə səviyyədə xidmət etməsinin göstəricisidir. Hüseyn Arif şeirində güc var.

Bu güc Azərbaycan dilinin gücüdür. Həmin gücü öz şeirində bunca əlçatmaz sadəliklə üzə çıxara bilmək Hüseyn Arifin gücüdür”.

*Rafael Hüseynov*

“Hüseyn Arifin yaşı altmışı keçəndə də, ömrünün son günlərini yaşayanda da onun poeziyasında ...ocaq istiliyi, çeşmə duruluğu, bulaq saflığı vardı. Bu duruluq, bu saflıq onun xalqından-millətindən, elindən-obasından, yurdundan-yuvasından, dilindəngülüstanından... süzülüb gəlirdi. Şair kimi yaşadı, qəlbinin səsinə qulaq asdı, duyan könülləri sazın-sözün laylasına tutdu...”

*Zəlimxan Yaqub*

“Hüseyn Arif xalq müdrikliyinin ifadəsidir. Müdriklik müxtəlif olur - intellektual müdriklik, texniki müdriklik... Xalq nə qədər müdrikdirsə, Hüseyn Arif o qədər müdrikdir. Onun poeziyası xalqın düşüncələrinin, ruhunun, dilinin birbaşa ifadəsidir”.

*Nizami Cəfərov*

“Son əlli ildə yeganə lirik şairdir ki, bu qədər folklorlaşdı. Bu gün Azərbaycanın elə bir kəndi yoxdur ki, orada məclislərdə Hüseyn Arifin bir sözü söylənməsin”.

*Məhərrəm Qasımlı*

“Hüseyn Arif şeirinin bir qanadı el-aşıq poeziyasından güc alırsa, o biri qanadı divan poeziyasından fəlsəfi məzmunu ilə açılır”.

*Yusif Günaydın*

“Hüseyn Hüseynzadənin bir sənətkar kimi xoşbəxtliyi ondadır ki, onu başqalarından fərqləndirən orijinallıq – novatorluğa gətirib çıxarmışdır. Hüseyn Arifin yaradıcılığında hər şey millidir, varlığımızın bədii əksidir. O, xalqın hikmətini sənət süzgəcindən keçirib, cilalayıb, yenidən xalqa qaytarır”.

*Şamil Qurbanov*

“Əgər evimizdən saz səsi gəlirdisə, bilirdik ki, Hüseyn əmi bizə qonaq gəlib. Atam deyərdi ki, Hüseyn klassikdir, böyük şairdir. Mübahisə edərdik: "Əgər klassikdirsə, niyə bizim ədəbiyyat kitabında onun adı yoxdur?" - deyə mübahisə etməyə çalışardıq. Atam deyərdi ki, qızım, siz o kitaba fikir verməyin. Onun gerçəkdən böyük şair olduğunu atam və Hüseyn əmi həyatdan gedəndən sonra anladım”.

*Məleykə Abbaszadə*

“Hüseyn Hüseynzadənin şeir dünyası heç kəsi xatırlatmayan bir sənətkar dünyasıdır. Onun sənətkarlıq fərdiliyinin əsas səbəbi də budur. Sevilə-sevilə oxunan şairin qələmə aldığı hisslər, problemlər insanla birlikdə yaranıb, insanla da yaşayacaqdır. Onlar ...hər zamanın, hər yaşın adamına tanışdır. Elə buna görədir ki, qiymətə çox xəsis olanlar belə “Hüseyn əsil şairdir!”-hökmünü böyük bir daxili inamla verirlər. Hüseyn Arif dilinin doğmalığı, mövzusunun dərinliyi, sadəliyi ilə hər kəsi heyrətləndirir”.

*Xudu Məmmədov*

## Haqqında şeirlər

Dilə gəlib ürəyimin fəryadı,
Qorumadıq Hüseyn adlı ustadı.
Hardan alaq bu atəşi, bu odu,
Hər bir ağac belə meyvə bitirməz.
Beləsini zaman bir də yetirməz.
Hər məclisdə bil, sözünü deyirlər,
Yanılmadın yol-izini deyirlər,
Qorumadın sən özünü deyirlər,
Qorusaydın, Hüseyn Arif olmazdın,
Milyonların yaddaşında qalmazdın!

*Həmid Abbas*

Qalır qulağımda ustad söhbəti,
Oxudu şeirimi əlində qələm.
Vurğunla başlanan böyük sənətin,
Zirvəsi Hüseyndir, ətəyi mənəm.

*Nəriman Həsənzadə*

Ustad! Gözlərimə zülmət çöküldü,
Könlüm damla-damla çağlayan kimi.
Köksümdən vuruldum, bağrım söküldü,
Ağrın ürəyimi dağlayan kimi.
Yetər ki, eşqinlə ötər könüllülər,
Ötdükcə fəsillər, keçdikcə illər.
Yazını elliklə saxlayar ellər,
Yasını elliklə saxlayan kimi...
Dilini qanmayan dillərmi vardır?
Dərdinə yanmayan sellərmi vardır?
Bağlarmı tapılar, tellərmi vardır,
Rəfiqi Hüseynə bağlayan kimi?

*Rəfiq Zəka*

Bilirəm, ağırdır oğulsuz günlər,

Bilmirəm nə deyim, qüssən azalsın.

Boşalt ürəyini, şeir sevənlər,

Sənin qəm tacına qoy ortaq olsun.

*Davud Nəsib*

Adil deyər dağdan böyük qəlbin var,

Sənin olsun balan kimi balalar!

Zarafatın, sözün, şeirin Hüseyni,

Arifi də Hüseyn Arif yaşadar.

*Adil Rəsul*

Ötgün sözün qılınc oldu, ox oldu,

Başın üstə qeylü-qallar çox oldu,

Çox cığırlar itdi, batdı, yox oldu,

Öz cığırı, yolu qalan sən oldun.

Babaların hikmətinə ləl dedin,

Nəvələrə qucaq açdın, gəl dedin.

Torpaq dedin, vətən dedin, el dedin,

Ulus deyib, ulu qalan sən oldun.

*Zəlimxan Yaqub*

Ustad! Gözlərimə zülmət çöküldü,

Könlüm damla-damla çağlayan kimi.

Köksümdən vuruldum, bağrım söküldü,

Ağrın ürəyimi dağlayan kimi.

Yetər ki, eşqinlə ötər könüllülər,

Ötdükcə fəsillər, keçdikcə illər.

Yazını elliklə saxlayar ellər,

Yasını elliklə saxlayan kimi...

Dilini qanmayan dillərmi vardır?

Dərdinə yanmayan sellərmi vardır?

Bağlarmı tapılar, tellərmi vardır,

Rəfiqi Hüseynə bağlayan kimi?

*Rəfiq Zəka*

Şair olan Koroğlu tək mərd olar,

Bir günü xoş, min bir günü dərd olar

İpək könlü polad kimi sərt olar,

Doğru sözdür: polad sınar, əyilməz!

*Hüseyn Kürdoğlu*

Səsin ellərə düşüb,

Eşqin tellərə düşüb.

Sözün dillərə düşüb,

Vurğunun sözü kimi.

*İlyas Tapdıq*

Mən sənə təsəlli vermirəm qardaş,

Təsəllin yazdığın şeirlər olsun.

Sənət sarayında qoyduğun hər daş,

Sənə həm təsəlli, həm hünər olsun.

*Nigar Rəfibəyli*

Sənin ilhamına söz ola bilməz.

Yanmayan ocaqda köz ola bilməz.

Dağ şəlaləsisən, çağla, əzizim,

Quyuya ha su tök, o dola bilməz.

*Mirvarid Dilbazi*

## Kitabları




Seçilmiş əsərləri : poeziya. - Bakı : Təhsil, 2014. - 400 s.

Tanınmış şair Hüseyn Arifin poeziya aləmi mövzu baxımından genişdir. Onun təbii və canlı dili ilə seçilən əsərlərində həyatın öz nəfəsi duyulur. Məhz buna görədir ki, Hüseynin şeirləri çox zaman mahnı mətninə çevrilmişdir. Təbiət mövzusunda yazdığı və əksərən fəlsəfi ümumiləşdirmələrlə sona yetirdiyi əsərləri ilə şair bizi ana təbiəti duymağa, qorumağa, doğma torpağın qədrini bilməyə çağırır. Hüseyn Arifin seçmə əsərlərinin toplandığı bu kitabdakı şeirlərin də başlıca mövzusu saf insani duyğular, el-oba sevgisi, sülh və əmin-amanlıq arzularıdır.




Seçilmiş əsərləri. - Təkrar nəşr. - Bakı : Şərq-Qərb, 2004. - 224 s.

Xalq şairi Hüseyn Arifin bu kitabına onun müxtəlif illərdə yazdığı gəraylıları, qoşmaları , müxtəlif mövzulu şeirləri, satiraları, poemaları, dillər əzbəri olan mahnı mətnləri toplanmışdır.




Şeir deyilmi... : Hikmətli sözlər. - Bakı : Şirvannəşr, 2009. - 200 s.

Bu kitabda müəllifin müxtəlif mövzularda yazdığı şeirləri toplanmışdır.

**Əsərləri kitablarda**




Müəllimə-sənətkara : Yazıçı Mir Cəlal Paşayevin anadan olmasının 50 illiyi münasibətilə // Mir Cəlal. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1998. – S. 143.

Bu kitabda görkəmli alim Mir Cəlalın həyat və yaradıcılığından bəhs edilir. Kitabda ədibin keçdiyi çətin və şərəfli ömür yolu əks etdirilmişdir.




Ustad Cəfər Xəndan // Cəfər Xəndan – 100. - Bakı : "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2010. – S. 182-184.

Kitab görkəmli ədəbiyyatşünas, tənqidçi, şair, mütərcim və ictimai xadim Cəfər Xəndan Zeynal oğlu Hacıyevin həyat və yaradıcılığından bəhs edir. Burada verilmiş çoxsaylı xatirələr, şəkillər, alimə həsr olunmuş şeirlər, onun fars dilindən etdiyi poetik tərcümələr və biblioqrafiyası Cəfər Xəndanın şərəfli ömür yolunu hərtərfli əks etdirir.

**Əsərləri dövri mətbuatda**

Ağac yenə ağacdır ; Ehtiyacım var ; Doymuşam və b. : şeirlər // Ədalət. – 2022. – 18 iyun. – S. 7.

Gərək yaşardı // Ədəbiyyat qəzeti. – 1992. – 1 may. - № 18. – S. 8.

Həyatda ; Koroğluya qayıdaq ; Yaşayardımı və b : şeirlər // Ədəbiyyat qəzeti. – 1991. – 1 mart.

Məni : şeir // Ədəbiyyat qəzeti. - 2013. - 1 fevral. - S. 3.

Ora vətəndir : şeir // Ulduz. – 2021. - № 1. – S. 32.

Poeziya ləçəkləri // Mədəniyyət. – 1991. – 26 dekabr.

Yaxşı ki, babalar varmış dünyada : şeir // Savalan. – 2008. – 8-11 fevral. – S. 1.

## Haqqında kitablarda




**Cəfərov N.** Hüseyn Arif dünyası // Klassiklərdən müasirlərə. - Bakı : Çaşıoğlu, 2004. – S. 181-185.

Kitab müəllifin ədəbiyyat barədəki elmi-metodoloji mövqeyini, ideya-estetik düşüncələrini və müəyyən polemika doğuran mülahizələrini əks etdirir.




Hüseyn Arif (1924-1992) // Müasir Azərbaycan ədəbiyyatı : dərslik : C. 2. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - S. 180-189.

BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının müəllim kollektivi tərəfindən yenidən işlənmiş və təkmilləşdirilmiş dərsliyin II nəşrində müasir Azərbaycan ədəbiyyatının ayrı-ayrı dövrlərinin şeir, nəsr, dramaturgiya, tənqid və ədəbiyyatşünaslığa dair elmi-nəzəri icmallar və onları tamamlayan portretlər verilmişdir. Dərslik ali məktəblərin filologiya fakültəsi tələbələri üçün nəzərdə tutulmuşdur.




**Paşayev Q.** Hüseyn Arif dünyası // Borcumuzdur bu ehtiram. - Bakı : Qarabağ, 2010. – S. 121-126.

Kitabda Qəzənfər Paşayevin ünsiyyətdə olduğu, əksəriyyəti ilə illər boyu dostluq etdiyi, dünyasını dəyişmiş dəyərli insanlar haqqında fikirləri, düşüncələri yer alır. Kitab xalq tərəfindən sevilən, unudulmaz insanların xatirəsinə bir töhfədir.




**Yaqub Z.** Hüseyn Arif haqqında xatirə şeirləri // Seçilmiş əsərləri. 2 cilddə. C. II. - Bakı : Şərq-Qərb, 2006. - S. 154-157.

Müasir Azərbaycan poeziyasında öz dəst-xətti ilə seçilən tanınmış şair Zəlimxan Yaqub xalq yaradıcılığının bədii texnologiyasından ustalıqla bəhrələnərək, ədəbiyyatımızda irsilik ənənələrini sədaqətlə davam etdirilir. Xalqın mübarizə ruhunun, milli təəssübkeşlik və vətənpərvərlik hisslərinin ictimai-estetik düşüncəyə uyğun bədii-emosional ifadəsi şairin əsərlərini səciyyələndirən əsas cəhətlərdən biridir.

## Haqqında dövri mətbuatda

**Abbaslı T.** Başdan-başa təbiət təbli... : Xalq duyğulu, elat qəlbli, “Arif” təxəllüsü ilə bahəm “qağa” ləqəbli Hüseyn Arif // Mədəniyyət. - 2016. - 15 iyun. - S. 13.

**Abbaslı T.** Bənzərsiz qəlb və qələm təbiətlisi // Mədəniyyət. – 2017. – 13 sentyabr. - № 71. – S. 13.

Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin fərmanı : Hüseyn Arif – 60 // Ədəbiyyat və incəsənət. – 1984. – 22 iyun.

**Cəfəroğlu Ə.** Çağlar zaman-zaman Hüseyn Arif // Mədəniyyət. - 2014. - 24 oktyabr. - S. 6.

**Əliyev A.** Hüseyn Arif haqqında lətifələr // Azad Azərbaycan. – 2007. – 9 dekabr.

**Fərəcullayev F.** Xatırla məni : Hüseyn Arif – 75 // Azərbaycan. – 1999. – 5 avqust. – S. 5.

**Hacıyev T.** Sözlərin rənglər dünyası : Hüseyn Arif – 60 // Azərbaycan müəllimi. – 1984. – 27 iyun. – S. 3.

**Həsənli H.** Yaddaşımdakı Hüseyn Arif : Və ya söhbəti də səmimi idi, ülfəti də... // 525-ci qəzet. - 2017. - 28 yanvar. - S. 22 -23.

Hüseyn Arif Türkiyənin xalq şairidir // Ədəbiyyat və incəsənət. – 1990. – 15 iyun.

Hüseyn Arif, xatırla məni // 2023. – 20 sentyabr. – S. 4.

Hüseyn Arifin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı // Azərbaycan. – 2014. – 3 may. – S. 1.

**Hüseynzadə Z.** Hüseyn Arif poeziyasında təbabət : Hüseyn Arif – 80 // Ədəbiyyat qəzeti. – 2004. – 4 aprel.

**Hüseynzadə Z.** Sonuncu şeirinin tarixi // Ədəbiyyat qəzeti. – 2013. – 14 iyun. - № 22.

**Xəlil Z.** Bahar duyğuları // Ədəbiyyat və incəsənət. – 1965. – 24 aprel.

**Köçərli F.** Şair və təbiət // Ulduz. – 1975. - № 3. – S. 40-42.

Kürdəmirdə Hüseyn Arifin 90 illiyi qeyd edilib // Mədəniyyət. – 2014. – 2 iyul. - № 50. – S. 10.

**Maqsudov F.** Təbiət şairi, torpaq şairi // Ədəbiyyat və incəsənət. – 1984. – 19 avqust.

**Məmmədov M.** Poemalar toplusu // Ədəbiyyat və incəsənət. – 1984. – 28 dekabr.

**Məmmədov Ş.** Allahın istedadla təltif etdiyi şair : H. Arif – 80 // Azərbaycan müəllimi. – 2003. – 7 yanvar.

**Məmmədov Ş.** Həyat aşiqi, təbiət nəğməkarı : Hüseyn Arif – 75 // Azərbaycan müəllimi. – 1999. – 30 yanvar. – S. 5.

**Məmmədova N.** Saz nəfəsli, yaz həvəsli sənətkar : Hüseyn Arif – 70 // Xalq qəzeti. – 1994. – 19 aprel. – S. 3.

**Mirzəyeva Z.** Şairin kədər salnaməsi : Hüseyn Hüseynzadədən Hüseyn Arifə... // 525-ci qəzet. - 2020. - 1 oktyabr. - S. 14.

**Mütəllibov T.** Sözlü, sazlı ömrün üfüqləri // Azərbaycan gəncləri. – 1984. – 14 iyun. – S. 4.

**Nizamiqızı H.** Sözə arif Hüseyn Arif // Mədəniyyət. - 2014. - 22 oktyabr. - S. 3.

**Novruz C.** Xalqa, torpağa bağlı şair : Hüseyn Arifin anadan olmasının 60 illiyi // Kommunist. – 1984. – 20 iyun.

**Rza X.** Şairliyin mahiyyəti // Ulduz. – 1976. - № 11. – S. 30-34.

**Sara.** Hüseyn Arifin 85 illiyi qeyd edilib // 525-ci qəzet. - 2009. - 10 iyul. - S. 7.

**Sərvaz.** Həmişə bahardı Hüseyn Arif // Ədəbiyyat qəzeti. -2009. -10 iyul. -S. 7.

Sumqayıtda Hüseyn Arif yad edilib // 525-ci qəzet. - 2009. - 9 dekabr.- S. 7.

**Tahir R.** Təbiət və insanlıq poeziyası : Hüseyn Arif – 80 // Xalq qəzeti. – 2004. – 28 oktyabr.

**Ulutürk X. R.** Hüseyn Arif işığında // Bakı. – 1993. – 11 fevral.

**Yaqubqızı R**. Yığılmır yollardan fikrim, xəyalım // Respublika. - 2023. - 15 iyun. - № 126. - S. 14.